MİLLİ BESTSELLER

**Sabir ŞAHTAXTI**

# MAFİYA ŞAHİD SAXLAMIR

## Ölünü "diri" tutmalı

/ detektiv /

## II KİTAB

**III nəşr**

qanun nəşriyyatı

İlk dəfə 2001-ci ildə olmaqla bir neçə dəfə təkrar nəşr edilən "Mafiya şahid saxlamır" salnaməsi Sabir Şahtaxtının oxucularla ilk görüşü olub. Həyatın mürəkkəb və ziddiyyətli hadisələri, ömrün təzadları, insan münasibətlərinin məhdudsuzluğu, müxtəlif insan xislətləri və xarakterləri salnamədə oxunaqlı dildə qələmə alınmışdır və əsərin kəskin süjet və dramaturgiyasının əsasını təşkil edir.

Oxucular salnamədə şəxsiyyəti tərbiyə edən cəmiyyətin eybəcərlikləri, cinayətkar mühitin özünəməxsus və bəzən də qeyri-insani normaları daxilində yaşanılan insan taleləri ilə tanış olurlar. Müəllif salnamədə olduqca maraqlı obrazlar silsiləsi yaratmış və hər birinin özünəməxsus xarakterini bədii ustalıqla açmağa nail olmuşdur.

# ÖN SÖZ

*Gənc və istedadlı yazıçı Sabir Şahtaxtının mənə təqdim etdiyi "Ölünü "diri" tutmalı" kitabına məmnunluqla ön söz yazıb, oxucuların nəzərinə çatdırıram.*

*"Ölünü "diri" tutmalı" kitabı yazıçının beşcildlik əsərinin ikinci cildidir.*

*Detektiv janrı Azəprbaycan ədəbiyyatında yenidir. Janrın ilk nümunələri 60-cı illərin ortalarında meydana çıxmışdır. Gənc yazıçıların detektiv janrına üz tutması çox sevindirici haldır.*

*Zənnimcə, bu janr orijinal janrdır. Dünyanı cinayətkarlıq, qəddarlıq, ədalətisizlik, rəhmsizlik bürüdüyü vaxtda belə kitabların vasitəsilə insanlar həqiqətin varlığına inanırlar, ümid bəsləyirlər.*

*Mən gənc yazıçı Sabir Şahtaxtıya cansağlığı və ədəbiyyatda tutduğu janr sahəsində uğurlar arzulayıram.*

**Çingiz ABDULLAYEV**
*Bakı, 1 sentyabr 2001*

■ ■ ■

“Moskva–Bakı” qatarı Dağıstan ərazisinə daxil olmuşdu. Səhər yuxudan oyanan sərnişinlərin bəziləri yataqda uzanmış, bəziləri əl-üzünü yumaq üçün növbə gözləyir, bəziləri isə vaqon bələdçisinin gətirdiyi çaydan içərək, söhbət edirdilər. Dəhlizdə siqaret çəkənlər də var idi.

Sərnişinlərlə mehriban davranmağa adət edən vaqon bələdçisi Kərəm hamını razı salmağa çalışırdı. O, boş yeri olan kupelərə biletsiz sərnişinlər götürmüşdü.

Kərəm isə bundan əlavə çox vaxt öz yerini də satırdı. O, hər səfərdə də başqa bələdçilərdən çox qazanırdı. Amma qazancını yoldaşlarından gizlədir, həm də buna haqq qazandıraraq, deyirdi: “Mənə nə var, onlar nə qazanır? Niyə öz qazancımı bildirməliyəm?”

O, kupesində müxtəlif növ spirtli içkilər, siqaretlər saxlayırdı. Elə olurdu ki, gecənin bir yarısı həmin içkiləri, siqaretləri iki-üç qat bahasına satırdı. Bələdçinin spirtli içki satması çox təhlükəli idi. Əgər təsadüfən sərnişinlərdən kimsə içib, özünü apara bilməsəydi, dava-dalaş salsaydı, buna görə bələdçini işdən qovardılar. Amma ilk gündən bu işlərlə məşğul olan Kərəmin bələdçisi olduğu vaqonda bir dəfə də olsun, belə hadisə baş verməmişdi. Kərəm çox vaxt bəzi məsələləri ondan xeyli təcrübəli olan bələd-

çi Nataşa ilə məsləhətləşirdi. Kərəmdən 10 yaş böyük olan Nataşa rus olsa da, Azərbaycan dilində səlis danışır, çox vaxt da Kərəmin rus sözlərindən istifadə etdiyini ona irad tuturdu.

Onlar eyni qatara növbəyə çıxırdılar. Kərəm boş vaxtı olan kimi, özünü Nataşanın yanına verirdi. Nataşa isə çox nadir hallarda Kərəmin vaqonuna gəlirdi. Kərəmlə bələdçilik kursunda Nüşabə adlı qız oxumuşdu. Onlar kursu bitirən kimi eyni qatara təyinat almışdılar. Altıaylıq kurs dövründə onların arasında səmimi münasibət yaranmışdı. Bu münasibət getdikcə qarşılıqlı sevgiyə çevrildi. Amma işə başlayandan iki ay sonra hər şey dəyişdi. Kərəmin Nataşa ilə tanışlığı Nüşabəyə xoş gəlmirdi. O, əvvəlcə Kərəmdən küsdü. Görəndə ki, Kərəm onun küsməyini adi qarşılayır, məcbur olub, yenidən kurs yoldaşına yaxınlaşmağa başladı. Kərəm isə iki daşın arasında qalmışdı.

Nataşa Nüşabədən fərqli olaraq, Kərəmi qısqanırdı. Hələ işə təzə çıxdıqları günlərin birində Nataşanın kupesində oturub, söhbət etdikləri vaxt Nataşa qısqanclığını büruzə vermişdi. – O qız nəyindir?

– Bir yerdə oxumuşuq.

– Hmm...

– Nədir ki? Yaxşı, mehriban qızdır.

– Zəhləm gedir ondan.

– Niyə?

Nataşa Kərəmi tərs-tərs süzüb, söhbəti dəyişmək məqsədilə soruşdu:

– Vaqonu təmizləmisən?

– Yox. Hələ döşəkləri də yığmamışam.

– Bəs səhərdən nə edirdin? O qancıq gəlmişdi?

– Kim?

– Yaxşı bilirsən, – kimi deyirəm.

– Başa düşmürəm, axı o sənə nə edib?

– Nə edə bilər ki? Yadında saxla, ya o, ya mən.

O vaxta qədər Kərəmlə Nataşanın arasında heç nə olmamışdı. Amma Nüşabə ilə hər gün bir yerdə olur, sərnişinləri rahatlayandan sonra kupenin qapısını içəridən bağlayıb, bir-birlərinə sarılırdılar. Hər dəfə də bir-birlərini oxşayandan sonra Nüşabə deyirdi:

– Bir gün əlimizdən xata çıxacaq.

Kərəm özünü başa düşməməzliyə vurub soruşdu:

– Qorxursan ki, kimsə gəlib görər?

– Kiminsə görməyinin məsələyə nə dəxli?

– Bəs niyə elə deyirsən, qorxursan?

– Ey, ay Kərəm, sənə nə var ki, kişisən də.

Hər dəfə gülərüz, sevincək Kərəmin yanına gələn Nüşabə qanıqara çıxıb gedirdi.

Kərəmin anası oğlunun evlənməməsindən narahat idi. O, hər dəfə oğlu növbədən qayıdan kimi, onun səfəri barədə sorğu-sual edir, sonra isə yalvararaq, evlənməsini xahiş edirdi. Ailənin tək övladı olan Kərəm ərköyün olsa da, zəhmətkeş idi. Anası əvvəllər onun bələdçi işləməsini istəmirdi. Lakin Kərəmin yaxşı qazandığını gördükdə isə susmağa başladı. Hər dəfə növbəyə getməzdən bir-iki saat əvvəl Nüşabə onlara zəng vururdu. Anası üzdə heç nə hiss etdirməsə də, oğlunu Nüşabəyə qısqanırdı. Onu narahat edən o idi ki, birdən oğlu bələdçi qızla ailə qurar.

Kərəm bələdçilik kursunu qurtarıb, diplom alan gün qrup uşaqları ilə şəkil çəkdirmişdi. Bələdçi oğlanların arasında beş nəfər qız da var idi. Anası həmişə həmin şəklə baxanda Nüşabənin o qızlardan hansı olması ilə maraqlanırdı. Oğlundan soruşmağa isə utanırdı.

İki həftə əvvəl Moskvadan qayıdan vaxt bir gecədə 5–6 dəfə Kərəmin vaqonuna gələn Nüşabə onu yerində tapa bilməyib, küsmüşdü. O başa düşdü ki, Kərəm Nataşanın yanında qalıb. Nüşabəni qəhər boğurdu. Onun halı özündə deyildi. İki vaqon arasındakı

yolu gedib-gəlməklə, növbəni başa vuran Nüşabə sərnişinlərə çay belə vermədi. Xidmətə başladığı vaxtdan indiyə qədər ilk dəfə idi ki, sərnişinlər ondan narazılıq edirdilər. Səhəri gün sübh tezdən təkrar Kərəmin vaqonuna gedib, bu dəfə də Kərəmi görə bilməyib, bədbin halda geri qayıtmaq istəyirdi ki, vaqonlararası qapı açıldı. Nüşabə geri dönüb, qapıya tərəf baxdı. Kərəm pörtmüşdü. Onun yuxusuz olduğu bilinirdi. Gözləri şişib, qızarmışdı. Kərəmi bu vəziyyətdə görən Nüşabə hıçqırmağa başladı. Kərəm sərnişinlərdən kiminsə çıxıb, Nüşabəni ağlayan görəcəyindən ehtiyat edib, tez qapını açdı. Nüşabəni qucaqlayıb, kupeyə tərəf çəkdi. Nüşabə yatacaq yerində oturub, hönkürməyə başladı. "O sənin evini yıxacaq, bədbəxt edəcək", – deyə ağlayıb, hay-haray salan Nüşabə sakitləşmək bilmirdi. Kərəm onu bağrına basdı. Üz-gözündən, dodaqlarından öpmək istəsə də Nüşabə buna imkan vermədi. Kərəm ayaq üstə durub dedi:

– Nə olub sənə, niyə belə ağlayırsan?

– Bundan artıq nə olmalıdır ki? Məni tula yerinə qoymusan.

– Sakit ol, eşidərlər.

– Hə, özündən qorxursan?

– Mən heç nədən qorxmuram.

– Yıxacaq. O, saralmış yıxacaq sənin evini. Bilmirəm, başa düşmürəm, sən onda nə görmüsən?

– Nataşanı deyirsən?

– Məni eşşək yerinə qoyma. Yaxşı bilirsən kimi deyirəm.

Nüşabə hönkürtüsünü kəsib, ayağa durdu. Kərəmlə üz-üzə durub, gözlərini sildi. Kərəm bir az geri çəkildi. O, təəccübünü gizlətmədi. Nüşabənin bu hərəkəti o qədər gözlənilməz oldu ki, Kərəm özünü tamam itirdi. Sinəsini arıtlayan Nüşabə əyin-başını səliqəyə salıb, dilləndi:

– Kərəm!

– Hə.

– Bu işin axırı yoxdur.

– Hansı işin?

– Özünü keyliyə vurma. Bilmirəm, ondan nə asılı işin var? Bir onu bilirəm ki, o donuza oxşara it də tamah salmaz. Yaşayarıq, görərik.

Nüşabə bu sözləri deyib kupenin qapısını açdı. Hirslə dəhlizə çıxdı. Kərəm onun qolundan tutub, saxlamaq istəyəndə Nüşabə dedi:

– Get. Qorxma, daha sənə mane olan yoxdur. Get, gözəlçənin yanına.

– Nüşü, bir dəqiqə dayan.

– Bizimki qurtardı.

– Bilirsən, o məni...

– Bilmirəm, heç bilmək də istəmirəm. Sən ki, ondan ləzzət alırsan, ağzın şirin olsun.

– Mən sənsiz...

– Yalan danışanda elə et ki, heç olmasa, özün öz dediklərinə inanasan.

– Axı sən belə deyildin.

– Düz deyirsən. İndiyə kimi, istədiyini etmisən, istədiyini almısan məndən. Niyə narazı olmalısan ki?

– Nüşabə, mənim başqa yolum yoxdur.

– Hə. Nə yaxşı ki, boynuna alırsan. Keçirib səni boyunduruğa, eləmi?

– Keç içəri, hər şeyi sənə başa salaram.

– Lazım deyil. Mən heç nə eşitmək istəmirəm.

– Gəl bura, bəlkə kömək edə bildin.

– Bu, mümkün deyil. O səni elə ovsunlayıb ki, çətin səndə qətiyyət tapıla ki, onu rədd edə biləsən.

Bu vaxt sərnişinlərdən biri onlara yaxınlaşıb, narazı halda Kərəmə üz tutdu: